AZƏRBAYCAN RESPUBLİKASI KƏND TƏSƏRRÜFATI
NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT AQRAR UNİVERSİTETİ

*Əlyazması hüququnda*

**ASLANOV İLKİN RAFİQ OĞLU**

# AZƏRBAYCANDA FİSKAL SİYASƏT VƏ ONUN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

**İxtisas: 5309.01- "Sənayenin təşkili və dövlət siyasəti"**
**5308.01- "Ümumi iqtisadiyyat"**

**Отформатировано:** Отступ: Слева: 1,27 см, Первая строка: 1,27 см

**İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi**
**almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**GƏNCƏ – 2016**

Dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının “Sənayenin təşkili və dövlət siyasəti” kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** __iqtisad elmləri doktoru, professor,
AMEA-nın həqiqi üzvü
**Ziyad Əliabbas oğlu Səmədzadə**

**Отформатировано:** Отступ: Слева: 3,5 см

**Rəsmi opponentlər:** __iqtisad elmləri doktoru, professor,
AMEA-nın müxbir üzvü
**Akif Fərhad oğlu Musayev**

**Удалено:**

**Отформатировано:** Отступ: Слева: 3,81 см

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Anar Əli oğlu Əzizov**

**Aparıcı təşkilat:** Azərbaycan Milli Elmlər Akademiyasının
_İqtisadiyyat İnstitutu

**Отформатировано:** Отступ: Выступ: 3,71 см

Müdafiə “_27__” 02__2016-cı il saat_____da Azərbaycan DövlətAqrar Universitetinin nəzdində fəaliyyət göstərən fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyaların müdafiəsini keçirən FD.04.013 birləşdirilmiş dissertasiya şurasının iclasında aşağıdakı ünvanda olacaqdır.

**Ünvan:** Az 2000, Gəncə, A.İsgəndərov küçəsi, 64, 2-ci mərtəbə.

Dissertasiya işi ilə Azərbaycan Dövlət Aqrar Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat “____” ______________ 2016-cı ildə göndərilmişdir.

**FD.04.013 birləşdirilmiş dissertasiya**
**Şurasınınelmi katibi,i.ü.f.d.,dosent:** **V.T.Əmrahov**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Tədqiqat mövzusunun aktuallığı.** Dövlətin öz üzərinə götürdüyü funksiyaların genişliyindən asılı olaraq, fiskal siyasət iqtisadiyyatda resursların bölüşdürülməsinə əhəmiyyətli təsir gücünə malikdir. Vergilər və büdcə xərcləri vasitəsilə, bir tərəfdən gəlirlərin bölüşdürülməsinə müdaxilə edərək, gəlir bərabərsizliyini yumşaltmaqla öz sosial funksiyasını yerinə yetirən dövlət, digər tərəfdən büdcə xərcləri vasitəsilə ictimai malların istehsalını təmin edir, həmçinin iqtisadiyyatın stabilliyinin qorunmasında və böhranlara qarşı mübarizədə, eləcə də iqtisadi artımın dəstəklənməsində vacib rol oynaya bilir.

Xüsusilə, 2000-ci illərin ortalarında ölkədə neft bumundan qaynaqlanan yüksək sürətli iqtisadi artım dövlətin maliyyə imkanlarını əhəmiyyətli şəkildə genişləndirmiş, artan maliyyə imkanları vergi yükünü artırmadan (əksinə, azaltmaqla), büdcə xərclərini genişləndirərək, iri quruculuq işləri və infrastruktur layihələri həyata keçirməyə, bu yolla bir tərəfdən iqtisadiyyatın inkişafı üçün vacib olan ilkin şərtləri formalaşdırmağa, digər tərəfdənsə, məcmu tələbi "canlı" tutaraq qeyri-neft sektorunun sürətli artımı və qlobal iqtisadi sarsıntılara qarşı dayanıqlılığını təmin etməyə imkan vermişdir.

Bütün bu proseslər, dövlət büdcəsinin formalaşması, həmçinin dövlət xərclərinin yaratdığı pozitiv və neqativ makroiqtisadi effektlər, eyni zamanda dövlət maliyyəsinin uzunmüddətli dövrdə dayanıqlılığı kimi məsələlərin tədqiqini aktuallaşdırmışdır.

**Problemin öyrənilmə səviyyəsi.** Dövlət maliyyəsinin müxtəlif məsələləri, xüsusilə vergi və dövlət borcu ilə bağlı araşdırmaların tarixi orta əsrlərə gedib çıxsa da, müasir mənada fiskal siyasət və onun iqtisadi proseslərə təsir imkanlarının geniş tədqiqi C.M. Keynsin 1936-cı ildə çap olunan "Məşğulluğun, faizin və pulun ümumi nəzəriyyəsi" əsəri ilə başlayır. Onun ardınca Con Hiks, Fridrix Von Hayek, Riçard Masqreyv, Pol Samuelson, Artur Laffer, Ceyms Byükanan, Cozef Stiqlitz, Robert Barro kimi iqtisad öncülləri müasir fiskal siyasətin nəzəri və tətbiqi bünövrəsini formalaşdırmışlar. Azərbaycanda Z.Səmədzadə, N.İmanov, A.Musayev, Y.Həsənli, Ş.Hacıyev, R.Həsənov kimi görkəmli alimlər fiskal siyasətin müxtəlif aspektlərini geniş şəkildə araşdırmışlar. Ancaq iqtisadiyyatda gedən proseslərin dinamik inkişafı Azərbaycanda fiskal siyasət məsələlərinin formalaşmış yeni şəraitə uyğun təkrar tədqiqini və dərin təhlilini zəruri edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi Azərbaycanda fiskal siyasətin formalaşması və makroiqtisadi effektlərinin, o cümlədən uzunmüddətli fiskal dayanıqlılığın təhlili və qiymətləndirilməsi, həmçinin fiskal siyasətin təkmilləşdirilməsi istiqamətlərinin müəyyənləşdirilməsindən ibarətdir.

Tədqiqat işində qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

- dövlət büdcəsinin formalaşmasının başlıca mənbələrinin təhlili və qiymətləndirilməsi;
- dövlət büdcə xərclərinin əsas istiqamətlərinin və makroiqtisadi effektlərinin təhlili və qiymətləndirilməsi;
- faktiki büdcə kəsrinin mövcudluğunun əsaslandırılması və onun iqtisadi nəticələrinin təhlili;
- dövlətin icmal büdcəsinin uzunmüddətli fiskal dayanıqlılığının təhlili və qiymətləndirilməsi, dayanıqlılığın təmin olunması istiqamətlərinin müəyyənləşdirilməsi;
- ölkədə mövcud vergi yükünün beynəlxalq-müqayisəli təhlili, vergi yükünün optimal səviyyəsinin qiymətləndirilməsi və vergi sisteminin təkmilləşdirilməsi istiqamətlərinin müəyyənləşdirilməsi.

**Tədqiqatın obyekti.** Azərbaycanda həyata keçirilən fiskal siyasət, onun formalaşması və müasir inkişaf meylləri tədqiqatın obyektini təşkil edir.

**Tədqiqatın predmeti.** Tədqiqatın işinin predmetini müasir dövrdə Azərbaycan Respublikasında fiskal siyasətin formalaşmasına təsir edən amillərin, həmçinin onun təkmilləşdirilməsinin nəzəri-metodoloji və praktiki məsələlərinin öyrənilməsi təşkil edir.

**Tədqiqat işinin nəzəri–metodoloji əsasları.** Tədqiqat işi elmi abstraksiya, analiz-sintez, induksiya-deduksiya, statistik təhlil, ekonometrik analiz və məntiqiümumiləşdirmə kimi tədqiqat üsullarından istifadə edimək lə yerinə yetirilmişdir.

**Tədqiqatın informasiya bazası.** Tədqiqat işinin informasiya bazasını Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin, Maliyyə Nazirliyinin, İqtisadi İnkişaf Nazirliyinin, Azərbaycan Respublikası Mərkəzi Bankının, BVF və Dünya Bankının məlumatları, həmçinin internet resursları və bu qəbil digər materiallar təşkil edir.

**Tədqiqatın elmi yeniliyi aşağıdakılardan ibarətdir:**

- Ölkədə həyata keçirilən fiskal siyasət və onun makroiqtisadi effektlərinin müəyyənləşdirilməsi üçün nəzəri-metodoloji əsaslar ümumiləş -

dirilmiş və sistemləşdirilmişdir;

- Dövlət büdcəsinin formalaşmasında neft amilinin rolu ekonometrik model əsaslı ssenari analizi üzrə qiymətləndirilmişdir;
- Dövlət büdcəsi xərclərinin makroiqtisadi effektləri qiymətləndirilmişdir;
- İcmal büdcədən kənarda dövlət büdcəsinin kəsri müəyyən olunmuş, onun maliyyələşdirilmə mənbələri təhlil edilmiş və iqtisadi nəticələri qiymətləndirilmişdir;
- Uzunmüddətli fiskal dayanıqlılıq ekonometrik üsullarla analiz edilmiş və onun təmin olunması yolları müəyyənləşdirilmişdir;
- Ölkədə mövcud vergi yükü beynəlxalq-müqayisəli təhlil edilmiş, qeyri-neft sektoru üçün Armey əyrisi hesablanmış və vergi sisteminin təkmilləşdirilməsi istiqamətləri müəyyənləşdirilmişdir.

**Dissertasiya işinin nəzəri və praktik əhəmiyyəti.** Tədqiqat işinin nəticələrindən ölkədə fiskal siyasət mexanizmlərinin təkmilləşdirilməsində istifadə oluna bilər. Həmçinin, tədqiqat işinin ayrı-ayrı bölmələri "Makroiqtisadiyyat", "Makroiqtisadi siyasət" və "Ekonometrika" istiqamətləri üzrə tədris prosesində istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası və nəticələrin tətbiqi.** Dissertasiya işinin əsas müddəaları, əsaslandırılmış təklif və tövsiyələri ölkədə və xaricdə çap olunmuş yeddi elmi məqalədə öz əksini tapmış, həmçinin elmi-praktiki konfranslarda və seminarlarda məruzə edilmiş və müzakirə olunmuşdur.

**Dissertasiyanın strukturu və həcmi.** Dissertasiya işi giriş, üç fəsil, səkkiz bölmə, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Tədqiqat işinin ümumi həcmi 158 səhifədən təşkil olunmaqla, 29 cədvəl, 31 diaqram və 2 şəkili özündə birləşdirir. Ədəbiyyat siyahısı 75 adda mənbədən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **birinci fəsli** "Fiskal siyasətin nəzəri-metodoloji əsasları və beynəlxalq təcrübə" adlanır. Bu fəsildə fiskal siyasətin iqtisadi mahiyyəti, funksiyaları və prinsipləri ümumiləşdirilmiş, həmçinin nəzəri əsasları sistemləşdirilmiş və makroiqtisadi effektləri təhlil edilmişdir. Eyni zamanda, qlobal böhrandan əvvəl və sonrakı dövr üzrə ayrılıqda inkişaf etmiş və neftlə zənginölkələrdə fiskal siyasət meylləri araşdırılmışdır.

Bu tədqiqatda fiskal siyasət, hökümətin vergiqoyma, dövlət xərcləri, büdcə kəsiri, borclanma və borcların idarə edilməsi kimi alətlərdən istifadə edərək iqtisadiyyata təsir göstərməsi və onu tənzimləməsi ilə bağlı qəbul etdiyi qərarların məcmusu kimi müəyyən olunmuşdur. Dövlət müəyyən makroiqtisadi hədəflərə çatmaq üçün topladığı gəlirlərə və həyata keçirdiyi xərclərə dair qəbul etdiyi qərarlarla milli gəlir, işsizlik və inflyasiya kimi makroiqtisadi göstəriciləri tənzimləyir.

Fiskal siyasətin alətləri gəlir və xərc sisteminə mənsubluğuna görə iki əsas qrupa ayrılır:

- Gəlir sisteminin əsas alətləri vergiqoyma və borclanmadır. Bu alətlər iqtisadiyyata həm makro, həm də mikro səviyyədə təsir göstərir. Bu səbəbdən onlarla bağlı qəbul edilən qərarların ölkə iqtisadiyyatı üzərində neqativ effektlərə səbəb olmamasına diqqət yetirilməlidir;
- Xərc sisteminin əsas alətləri isə dövlət investisiyaları və transfertlərdir. Dövlət investisiyaları məcmu tələbi artıraraq tam məşğulluğa çatmağı hədəflədiyi kimi, eyni zamanda istehsal infrastrukturunu təkmilləşdirmək və investisiya şəraiti formalaşdırmaqla, özəl sektoru sərmayə qoyuluşuna təşviq edir. Transfertlər isə gəlir bərabərsizliyini yumşaltmaq, ölkə vətəndaşlarının minimal həyat şəraitini təmin etmək və əhalinin sosial rifahını artırmaq məqsədi daşıyır.

İqtisadi ədəbiyyatlarda fiskal siyasətin funksiyaları əsas və alt qruplara bölünür. Mənbələrdə fiskal siyasət aşağıdakı əsas funksiyaları qeyd olunur:

- İqtisadi resursların paylanması;
- Gəlirlərin bölgüsü və yenidən bölgüsü;
- İqtisadi sabitliyin təmin edilməsi.

İqtisadiyyatın mövcud vəziyyəti və qarşıya qoyulmuş məqsədlər fiskal siyasətin müxtəlif formalarının meydana çıxmasına səbəb olmuşdur.

Bu baxımdan fiskal siyasətin ekspansionist (genişləndirici) və daraldıcı formaları fərqləndirilir:

- Ekspansionist fiskal siyasət iqtisadiyyatı canlandırmaq, resessiya, böhran və ya deflyasiyanın qarşısını almaq məqsədi ilə tətbiq edilir. Genişləndirici fiskal siyasət bu istiqamətdə dövlət satınalmaları, transfertlər və s. kimi büdcə xərclərini artırmaqla, həmçinin vergi dərəcələrini aşağı salmaqla məcmu tələbi artırmağa yönəldilmiş tədbirlərin məcmusundan təşkil olunur.
- Daraldıcı fiskal siyasət inflyasiyanı azaltmaq, büdcə kəsrini və dövlət borcunu məqbul səviyyədə saxlamaq məqsədilə büdcə xərclərini azaltmağa və vergi gəlirlərini artırmağa yönəldilmiş tədbirlərin məcmusundan ibarətdir.

Fiskal siyasətin iqtisadi mənbələrdə geniş şəkildə təhlil edilən iki forması ixtiyari və qaydalı fiskal siyasət fərqləndirilir.

İxtiyari fiskal siyasət dövlət tərəfindən siyasətçilərə fiskal siyasətin alətlərindən istənilən tezlikdə və miqyasda istifadə ilə bağlı geniş səlahiyyətlər verir. İxtiyari fiskal siyasətin tərəftarları dövlət xidmətlərinin keyfiyyət və kəmiyyətini artırmaq məqsədilə fiskal siyasət alətləri vasitəsilə iqtisadiyyatın tənzimləməsinin müəyyən qaydalar və məhdudiyyətlər əsasında yox, daha çox tələblərə uyğun həyata keçirilməsi və bunun siyasətçilərin ixtiyarına verilməsi fikrini dəstəkləyirlər. Onlar, qaydalara söykənən fiskal siyasətin effektivliyinə görə ixtiyari fiskal siyasətdən geri qaldığını və daha elastik fiskal siyasətin digərinə nəzərən daha effektiv olacağını müdafiə edirlər.

İxtiyari fiskal siyasətin əksinə, qaydalı (və ya qaydalara əsaslanan) fiskal siyasətdə siyasətçilərə verilən səlahiyyətlərin müəyyən konstitutsional, qanuna və ya qaydalara əsaslanan məhdudiyyətlər çərçivəsində olması nəzərdə tutulur.

Qeyd olunduğu kimi birinci fəslin sonuncu bölməsində inkişaf etmiş və neftlə zəngin ölkələrdə fiskal siyasət meylləri geniş şəkildə təhlil edilmişdir.

İnkişaf etmiş ölkələrdə böhranaqədərki və böhransonrası fiskal siyasət meyllərini müəyyən etmək üçün əsasını İEÖ-lərin təşkil etdiyi 33 OECD (İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı) ölkəsində (Norveç həm də neft ölkəsi olduğundan ikinci qrupda təhlil edilmişdir) dövlət gəlirləri, dövlət xərcləri, büdcə kəsiri və dövlət borcunun ÜDM-ə nisbətinin 2004-2007 və 2010-2013-cü illərdəki dəyişmə meylləri təhlil edilmişdir.

Böhrandan əvvəlki dövrdə OECD ölkələrində orta hesabla ÜDM-in 0,7%-i səviyyəsində büdcə kəsiri müşahidə edilirdisə, böhrandan sonra bu göstərici 4%-ə yüksəlmişdir. Büdcə profisiti əldə edən ölkələrin sayı isə kəskin azalmışdır. Əgər 2004-2007-ci illərdə ölkələrin 57%-i fiskal siyasəti defisitli maliyyələşmə üzərində qururdusa, 2010-2013-cü illərdə onların payı 85%-ə çatmışdır.

Əksər İEÖ-də büdcə kəsrinin böyüməsi borclanma problemini də özü ilə birlikdə gətirmişdir. Təhlil edilən 33 OECD ölkəsində böhrandan əvvəl dövlət borclarının həcminin ÜDM-ə nisbəti orta hesabla 51,7% idisə, böhrandan sonra bu göstərici kəskin artaraq 70,9%-ə çatmışdır. Böhransonrası, xüsusilə dövlət borcu ÜDM-in 80%-indən artıq olan ölkələrin sayında kəskin artım müşahidə edilmiş, belə ölkələrin sayı 5-dən 11-ə yüksəlmişdir. Göründüyü kimi sonuncu qlobal maliyyə böhranının təsirlərini azaltmaq və nəticələrini aradan qaldırmaq məqsədilə İEÖ-lər aktiv şəkildə fiskal siyasətin büdcə xərcləri və borclanma kimi alətlərindən istifadə etmişlər ki, bu sözügedən ölkələrin böhrandan çıxmasında vacib rol oynamışdır. Ancaq bununla yanaşı qeyd olunan alətlərdən istifadə büdcə kəsirini və borclanma səviyyəsini artırmaqla bundan sonrakı dövr üçün fiskal siyasətin iqtisadi artıma təsir imkanlarını aşağı salmışdır.

Böhrandan əvvəlki dövrdə neftlə zəngin iqtisadiyyatlarda neft ixracının artması hesabına dövlət gəlirləri xərcləri əhəmiyyətli dərəcədə üstələmişdir. 2008-ci ildəki qlobal maliyyə böhranından sonra isə neft gəlirlərində baş verən azalma və dövlət xərclərindəki artım, Azərbaycan istisna olmaqla, sözügedən ölkələrdə dövlət maliyyəsinin profisitini kəskin şəkildə azaltmış, Rusiya və Venesuelada isə dövlət xərclərinin gəlirləri üstələməsi nəticəsində kəsir yaranmağa başlamışdır.

**Diaqram 1**

**Neftlə zəngin ölkələrdə dövlət maliyyəsinin kəsiri(ÜDM-də %-lə): qlobal böhrandan əvvəl və**

**sonra**




Mənbə: BVF-nun məlumatları əsasında tərtib edilmişdir.

OECD ölkələrindən fərqli olaraq, təhlil edilən neftlə zəngin ölkələrin əksəriyyətində büdcə profisitinin qorunub saxlanması dövlət borcunun artmasının qarşısını almaqla yanaşı, onun nisbi göstəricisinin (məcmu dövlət borcunun ÜDM-ə nisbətinin) azalmasına da şərait yaratmışdır. Təhlillərə daxil edilmiş neftlə zəngin ölkələrdə məcmu dövlət borcunun ÜDM-ə nisbəti böhrandan əvvəl 25.9% təşkil etdiyi halda, böhrandan sonra bu göstərici 5.9 faiz bəndi azalaraq 20%-ə enmişdir. Müqayisə üçün deyək ki, həmin dövrdə OECD ölkələrində bu göstəricidə orta hesabla 19.2 faiz bəndi artım müşahidə edilmişdir (qeyd olunan göstərici 51.7%-dən 70.9%-ə yüksəlmişdir). Azərbaycanda böhrandan əvvəlki dövrlə müqayisədə məcmu dövlət borcunun ÜDM-ə nisbətində 1.4 faiz bəndi azalma olmuşdur və hazırda Azərbaycanda dövlət borcunun nisbi göstəricisi təhlil edilən neftlə zəngin iqtisadiyyatların orta göstəricisindən 9.3 faiz bəndi, OECD ölkələrinin orta göstəricisindən isə 59.2 faiz bəndi aşağıdır.

Təhlillər əsasında müəyyən olunmuşdur ki, OECD ölkələrində olduğu kimi, neftlə zəngin iqtisadiyyatlarda da böhrandan sonra dövlət gəlirlərində azalma müşahidə edilmiş, buna paralel böhran təsirlərini yumşaltmaq üçün ekspansionist fiskal siyasət həyata keçirilmişdir. Nəticədə, sözügedən ölkələrdə dövlət maliyyəsinin profisiti kəskin şəkildə azalmış, bəzi ölkələrdə isə kəsirli maliyyələşmə müşahidə edilmişdir

**Diaqram 2**

**Neftlə zəngin ölkələrdə dövlət borcu (ÜDM-də %-lə):**

**qlobal böhrandan əvvəl və sonra**




Mənbə: BVF-nun məlumatları əsasında tərtib edilmişdir.

Dissertasiyanın **ikinci fəsli**"Azərbaycanda həyata keçirilən fiskal siyasət və onun makroiqtisadi effektlərinin təhlili və qiymətləndirilməsi" adlanır.Bu fəsildə Azərbaycanda dövlət büdcəsinin formalaşma mənbələri və xərclənmə istiqamətləri təhlil edilmiş, büdcə daxilolmalarının formalaşmasında vergi yükü və neft amilinin rolu, eləcə də büdcə xərclərinin makroiqtisadi effektləri qiymətləndirilmiş, icmal büdcədən kənarda dövlət büdcəsinin kəsri, Neft Fondun vəsaitlərinin iqtisadiyyata inyeksiyası və sonuncunun doğurduğu iqtisadi nəticələr geniş şəkildə təhlil edilmişdir.

Müəyyən olunmuşdur ki, xüsusilə 2008-ci ildən başlayaraq dövlət büdcəsinə daxilolmaların strukturunda əhəmiyyətli dəyişikliklər baş vermişdir. 2000-2007-ci illərdə büdcənin əsas gəlir mənbəyi olan vergi daxilolmalarının büdcədə payı (bu illərdə büdcə gəlirlərinin orta hesabla 76.6%-i vergilər hesabına formalaşmışdır) 2008-ci ildən etibarən Neft Fondundan köçürmələrin artması fonunda sürətlə kiçilməyə başlamışdır. 2008-ci ildə Neft Fondundan dövlət büdcəsinə 3.8 mlrd.manat həcmində transfer edilməsi nəticəsində vergilərin büdcədə payı 80.8%-dən 57.4%-ə düşmüşdür. Vergi daxilolmalarının artım sürətinin Neft Fondundan köçürmələrin artım sürətindən geri qalması, daha doğrusu ikincinin çox yüksək templə artırılması nəticəsində vergi daxilolmalarının büdcədə payı 2013-cü ildə 35%-ə qədər azalmışdır. 2014-cü ilin ikinci yarısından etibarən neft qiymətlərində müşahidə edilən sürətli azalmanın nəticəsi olaraq həmin ildə Neft Fondundan dövlət büdcəsinə köçürmələrin 9.3 mlrd.

manata qədər azalması və vergi daxilolmalarının 6.8 mlrd. manatdan 7.7 mlrd. manata qədər artması hesabına vergi daxilolmalarının büdcədə payı 41.8%-ə qədər yüksəlmişdir. Hazırda Fonddan transferlər, məcmu vergilərlə birgə büdcə gəlirlərinin 92.5%-ni təşkil etməkdədir.

Dissertasiyanın ikinci fəslinin birinci bölməsində Azərbaycanda dövlət büdcəsinin formalaşmasında neft amilinin rolu aşağıdakı reqressiya modelləri vasitəsilə qiymətləndirilmiş və əldə edilmiş nəticələrdən ortamüddətli ssenari analizləri üçün istifadə edilmişdir.

$$LnBg = 1.31*LnUDM - 4.55 - 0.15*FD \qquad (1)$$

(s.s) (0.0149) (0.1473) ( 0.0333)

$R^2$ =0,9986 DW = 2.5

Burada,

*LnBg - büdcə gəlirlərinin natural loqarifması;*

*LnUDM - ÜDM-in natural loqarifması;*

*FD - fiktiv dəyişən (2006, 2007 və 2008-ci illərdəki neft bumunun modeldə yaratdığı struktur sınmalarını aradan götürmək üçün modelə daxil edilmişdir).*

Bənzər hesablamanı, Neft Fondundan köçürmələr xaric, büdcənin digər gəlirləri üçün də aparılmış və aşağıdakı nəticəni əldə edilmişdir:

$$LnBg_nfs = 0.95*LnUDM - 1.41 + 0.24*FD \qquad (2)$$

(s.s) (0.0166) (0.1619) (0.0370)

$R^2$ =0,997 DW = 2.05

Burada,

*LnBg_nfs - Neft Fondundan köçürmələr xaric, büdcə gəlirlərinin natural loqarifması.*

Büdcə gəlirlərinin bütövlükdə iqtisadiyyatdakı (ÜDM-dəki) dəyişmələrə verdiyi reaksiyanı müəyyənləşdirdikdən sonra, iqtisadiyyatın neft sektorunun əsas determinantları olan neft hasilatı və neft qiymətlərindəki dəyişikliklərə qarşı necə reaksiya nümayiş etdirdiyini, həmçinin qeyri-neft sektorundakı dəyişmələrə qarşı həssaslığı ölçülmüşdür. Bu məqsədlə büdcə gəlirlərinin neft hasilatı, neft qiymətləri və qeyri-neft ÜDM-dən asılılığının reqressiya modeli qiymətləndirilmişdir:

$$LnBG = 0.55*LnNH + 0.28*LnNQ + 0.995*LnQNUDM - 7.5 \qquad (3)$$

(s.s) (0.0934) (0.0991) (0.0748)

$R^2$ =0.9981DW = 2.4

Burada,
*LnQNUDM – qeyri-neft ÜDM-in natural loqarifması;*
*LnNH – neft hasilatının natural loqarifması:*
*LnNQ – neft qiymətlərinin natural loqarifmasıdır.*

Qiymətləndirmələrdən əldə edilmiş nəticələr əsasında ortamüddətli dövr - 2014-2020-ci illər üçün aşağıdakı ssenarilər əsasında büdcə gəlirləri təhlil edilmişdir. Qeyd edək ki, ssenarilərdə qeyd edilməyən bütün şərtlərin (vergi dərəcələri, dövlət rüsumları və s.) dəyişməz qalacağı fərz edilmişdir.

***Ssenari 1.*** Neft hasilatı təqribən hazırki səviyyədə (2013-cü ildəki 43.457 mln. ton) – 43 mln. tonda sabitləşmişdir. Neftin qiyməti 100 dollar/barrel ətrafında dəyişməkdədir. Qeyri-neft sektorunun illik real artım tempi 7%, illik inflyasiya 3% təşkil etməkdədir. Ssenari 1.-i ortamüddətli dövr üçün hesablamalarımızın baza ssenarisi kimi qəbul edəcəyik.

***Ssenari 2.*** Neft hasilatı 2014-cü ildən başlayaraq, hər il 10% azalmaqdadır. Neft qiyməti və qeyri-neft sektorunun artımı ilə bağlı fərziyyələr Ssenari 1.-də olduğu kimidir. Ssenari 2. ortamüddətli dövrdə davam edə biləcək mümkün neft hasilatı şokunun təsirlərini ölçmək məqsədi daşıyır.

***Ssenari 3.*** Neft qiymətləri sonuncu qlobal böhranın ən kəskin fazasındakı – 2009-cu ildəki – səviyyəyə, yəni 60 dollar/barrelə enmiş və bu səviyyədə qərarlaşmışdır. Neft hasilatı və qeyri-neft sektorunun artımı ilə bağlı fərziyyələr Ssenari 1.-də olduğu kimidir. Ssenari 3. Ortamüddətli dövrdə davam edə biləcək mümkün neft qiyməti şokunun təsirlərini ölçmək məqsədi daşıyır.

***Ssenari 4.*** Neft hasilatı 2014-cü ildən başlayaraq, hər il 10% azalmaqdadır, neft qiymətləri isə 60 dollar/barrel ətrafında qərarlaşmışdır. Qeyri-neft sektorunun artımı ilə bağlı fərziyyələr Ssenari 1.-də olduğu kimidir. Ssenari 4. Ortamüddətli dövrdə davam edə biləcək mümkün neft hasilatı və neft qiyməti şoklarının birgə təsirlərini ölçmək məqsədi daşıyır.

Hesablamalar göstərir ki, büdcə gəlirlərinin 2013-cü ildəki real həcminin bərpası 2-ci və 3-cü ssenarilər üzrə 2016-cı ildə mümkündür. Bərpaya qədər isə, büdcə gəlirlərini 2013-cü ilin səviyyəsində saxlamaq üçün 2-ci ssenari üzrə 331 mln. manat, 3-cü ssenari üzrə isə 2.6 mlrd. manat əlavə vəsaitə ehtiyac olacaq. Büdcə gəlirlərinin 2013-cü il real həcmi bərpa olunduqdan sonra, 2016-2020-ci illərdə birlikdə, büdcədə 2-ci ssenariyə görə 2.6 mlrd. manat, 3-cü ssenariyə görə isə 18 mlrd. manat

əlavə (2013-cü ilin real büdcə gəlirləri ilə müqayisədə əlavə) vəsait yaranacaq.

Nisbətən mürəkkəb vəziyyət 4-cü ssenari üzrə yaranır. Proseslərin "ən pis hal" ssenarisi üzrə gedişatında 2013-cü ilin büdcə gəlirlərinin real həcmi 2020-ci ilə qədər bərpa olunmur və həmin vaxta qədər keçən 7 il ərzində büdcə gəlirlərini 2013-cü il səviyyəsində saxlaya bilmək üçün 16.1 mlrd. manat əlavə vəsaitə ehtiyac var. Hesablamalara görə, eyni şərtlər davam edəcəyi halda, bu ssenari üzrə büdcənin 2013-cü ildəki real həcmi yalnız 2030-cu ildə bərpa oluna bilər ki, o zamana qədər büdcə gəlirlərini 2013-cü ilin real həcmində saxlaya bilmək üçün 24.4 mlrd. manat əlavə vəsaitə ehtiyac var.

Bu məbləğ, proseslər sonuncu ssenari üzrə gedəcəyi halda, büdcənin sabitliyini qorumaq üçün kifayət qədər böyük həcmli vəsaitlərə ehtiyac ola biləcəyini ifadə edir. Ancaq təkcə onu demək kifayətdir ki, Azərbaycanın hazırki xarici valyuta ehtiyatları ehtiyac olan bu vəsaitdən 1.7 dəfə çoxdur. Üstəlik ehtiyac olan bu vəsaitin bir ilə düşən maksimal həcmi 2013-cü ilin ÜDM-nin 5%-dən də azdır və ildən-ilə azalmağa meyllidir. Bu isə büdcə kəsirinin heç də təhlükəli həddi hesab edilmir.

Sonuncu ssenaridə vəziyyəti stabilləşdirməyin daha bir yolu var və güman ki, bu ən düzgün olanıdır – qeyri-neft sektorunun daha yüksək real artım tempini təmin etmək. Hesablamalara görə, qeyri-neft sektorunun real ifadədə illik 9%-lik templə artımını təmin etmək mümkün olarsa, büdcə gəlirlərinin 2013-cü ildəki real səviyyəsini cəmi 5 ilə (2019-cu ildə) bərpa etmək mümkündür. 2019-cu ilə qədər ehtiyac olan əlavə vəsaitin həcmi isə əvvəlkinin (bərpa üçün 2030-cu ilə qədər ehtiyac olan vəsaitin) 1/3-dən də az - təqribən 7.4 mlrd. manat olacaq.

Qeyd olunduğu kimi, dissertasiya birinci fəslinin ikinci bölməsində büdcə xərclərinin əsas istiqamətləri və makroiqtisadi proseslərə təsiri geniş təhlil edilmişdir. Müəyyən olunmuşdu ki, Azərbaycan iqtisadiyyatında 2005-ci ildən başlayan neft bumunun təsiri ilə özünəməxsus fiskal dominantlıq formalaşmışdır. Xərclərinin kəskin artımı ilə faktiki olaraq iqtisadiyyata pul ötürülməsinin əsas kanalına çevrilən dövlət büdcəsi, eyni zamanda qeyri-neft məcmu tələbin başlıca elementi olmuşdur. Bu dəyişikliklər, təbii olaraq, qeyri-neft sektoru, əhali gəlirləri, məşğulluq, inflyasiya, yoxsulluq və digər istiqamətlərdə bir sıra makroiqtisadi effektlərlə müşaiyət edilmişdir.

Büdcə xərclərinin dinamikası və strukturundakı dəyişikliklərin təhlili əsasında müəyyən olunmuşdur ki, büdcə xərclərinin, xüsusilə də

“iqtisadiyyata xərclər”in sürətli artımı iqtisadiyyatda təxirəsalınmaz modernləşdirmənin vacibliyindən irəli gəlmişdir ki, dövlət bu məsələdə əsas yükü öz üzərinə götürmüşdür. Azərbaycan iqtisadiyyatında 2005-ci ildən etibarən, büdcə xərclərinin yüksək sürətli artımı büdcənin iqtisadiyyat, xüsusilə qeyri-neft sektorunun inkişafında oynadığı rolun əhəmiyyətini xeyli artırmışdır.

Azərbaycan iqtisadiyyatı üçün aparılan hesablamalara əsasən, ölkə əhalisinin istehlaka marjinal meyllilik əmsalı 0.62-dir ki, bu da əhali gəlirlərinin hər 100 manat artımının son istehlak xərclərində 62 manatlıq artıma səbəb olması mənasına gəlir. Sonuncu isə büdcədən xərclənən hər 1 manatın (transfert xərcləri istisna olmaqla) iqtisadiyyatda 2.6 manatlıq gəlir yaratmaq potensialına malik olması deməkdir. Yəni, büdcə xərclərinin hipotetik multiplikator əmsalı 2.6-ya bərabərdir, eyni zamanda büdcənin transfert xərcləri üçün bu əmsal 1.6-dır.

Reallıqda isə multiplikator əmsalı öz hipotetik səviyyəsindən aşağı olur (vergilər, idxal və bu qəbildən olan digər səbəblərdən). Ekonometrik metodlardan istifadə edilərək aparılan qiymətləndirmələrin nəticələrinə görə, nominal büdcə xərclərinin hər bir manatlıq artımı, orta hesabla qeyri-neft ÜDM-in 1.4 manat artması ilə nəticələnir (digər şərtlər dəyişməz qalarsa). Real ifadədə (inflyasiyadan təmizlənmiş) büdcə xərclərinin 1 manatlıq artımı isə qeyri-neft ÜDM-nin real ifadədə 0.94 manat artması ilə nəticələnir.

Əhali gəlirləri üçün aparılan anoloji hesablamaların nəticələrinə əsasən, büdcə xərclərinin nominal ifadədə hər 1 manatlıq artımı əhali gəlirlərini 1.82 manat (yəni, hipotetik multiplikatora nəzərən 0.78 manat daha az) artırır. Həmçinin, real ifadədə büdcə xərclərindəki hər 1 manatlıq artım əhali gəlirlərini real ifadədə 1.52 manat artırır.

Hesablamalara görə, büdcə xərclərindəki hər 1 mlrd. manatlıq artım məşğul əhali sayının 28 min nəfər artması ilə nəticələnir. Bu iki göstərici arasındakı elastiklik ölçmələrinin nəticələrinə görə isə, büdcə xərclərindəki hər 10%-lik artım məşğul əhali sayının 0.43% artmasına səbəb olur.Məşğulluq səviyyəsinin artması da, öz növbəsində, iqtisadi proseslərdə daha çox əhalinin iştirak etməsi, eyni zamanda həmin proseslərdən daha çox insanın fayda götürməsi mənasına gəlir ki, sonuncu da ölkədə yoxsulluq səviyyəsinin azalmasına təsir göstərir.

Qiymətləndirmələrin nəticələrinə görə, büdcə xərclərindəki hər 1 mlrd. manatlıq artım 200 min əhalinin yoxsulluqdan qurtulması ilə

nəticələnir. Eyni zamanda, əhali gəlirlərindəki hər 1 mlrd. manatlıq artım yoxsul əhali sayının 105 min nəfər azalmasına səbəb olur.

Azərbaycan iqtisadiyyatında büdcə xərclərinin, əhali gəlirlərinin və pul kütləsinin artım tempinin inflyasiyaya təsirinin (ayrı-ayrılıqda) ekonometrik analizinin nəticələrinə əsasən, büdcə xərclərinin artım tempinin 10% yüksəlməsi 2.1% inflyasiyaya səbəb olur. Eyni zamanda, əhalinin nominal gəlirlərinin artım tempinin 10% yüksəlməsi 7.8%-lik inflyasiya yaradır.

Həmçinin qiymətləndirmələrin nəticələrinə görə, büdcə xərclərində hər 1 manatlıq artım idxalın 0.52 ABŞ dolları artmasına səbəb olur. Əhali gəlirlərindəki hər 1 manatlıq artım isə idxalın 0.28 ABŞ dolları artması ilə nəticələnir.

Hesablamalara görə, büdcə xərclərindəki hər 1 mlrd. manatlıq artım İnsan İnkişafı İndeksinin 0.006 bənd yüksəlməsi ilə nəticələnir (hazırda - 2015-ci ilin İnsan İnkişafı Hesabatına əsasən - Azərbaycan 0.751 indeks qiyməti ilə 188 ölkə arasında 78-cidir). Eyni zamanda, büdcə xərclərinin hər 1 mlrd. manat artması DGÖM-ni 0.12 il artırır. Ayrılıqda, büdcənin səhiyyə xərclərinin 1 mlrd. manat artması isə DGÖM-ni orta hesabla 4 il yüksəldir. Qiymətləndirmələrdən göründüyü kimi, Azərbaycanda büdcə xərcləri ölkənin insan potensialının inkişafında vacib rol oynayır.

Dissertasiyanın ikinci fəslinin sonuncu bölməsində Azərbaycanda icmal büdcədən kənar dövlət büdcəsinin kəsri, onun maliyyələşdirilməsi mənbələri və həmin maliyyələşdirmənin ortaya çıxardığı iqtisadi nəticələr təhlil edilmişdir.

**Diaqram 3**

**Büdcə kəsrinin dinamikası: nominal həcmi və qeyri-neft ÜDM-ə nisbəti**



Mənbə: ARDSK və ARDNF-nun məlumatları əsasında tərtib edilmişdir.

Deyilənlər əsasında müəyyən olunmuşdur ki, Azərbaycanda büdcə kəsrinin iqtisadi nəticələrinin təhlili məqsədilə, büdcə kəsrinin, əsasən dövlət borclanması yolu ilə maliyyələşdirilməsinin nəticələrinin təhlili az əhəmiyyət daşıyır. Bu məqsədlə, büdcə xərclərinin sürətli artımını təmin edən böyük həcmli neft pullarının - Neft Fondu vəsaitlərinin dövlət büdcəsi kanalı vasitəsilə iqtisadiyyata inyeksiyasının yaratdığı nəticələrin təhlili daha vacibdir.

Təhlillər göstərir ki, böyük həcmli neft vəsaitlərinin büdcə kanalı vasitəsilə iqtisadiyyata ötürülməsi fiskal siyasəti dominant mövqeyə çıxarmaqla pul siyasətinin effektivliyini aşağı salır. Sonuncu isə öz növbəsində yüksək volatil inflyasiya və yuxarı faiz dərəcələri kimi mənfi iqtisadi nəticələr doğurur. Neft dollarlarının iqtisadiyyata inyeksiyası, eyni zamanda milli valyutanın bahalaşması (real ifadədə), yüksək əmək haqları, maliyyə və əmək resurslarının hərəkətində dəyişiklik kimi səbəblərlə ticari sektorların rəqabət qabiliyyətini aşağı salır və artımını məhdudlaşdır.

Təhlillər əsasında müəyyən olunmuşdur ki, Azərbaycanda Neft Fondundan dövlət büdcəsinə böyük həcmli köçürmələrin başlandığı 2006-cı ilə qədər, onunla eyni inkişaf mərhələsində olan ölkələrlə müqayisədə daha aşağı və stabil inflyasiya müşahidə edilmişdir. 2006-cı il və daha sonrakı illərdə isə bu tip köçürmələrin həcminin sürətlə böyüməsi pul siyasətinin fiskal siyasətin təsiri altına düşməsinə səbəb olmuş və nəticədə onun effektivliyini azaltmışdır.

Bu bölmədə aparılmış təhlillər əsasında müəyyən olunmuşdur ki, neft dollarlarının büdcə kanalı vasitəsilə iqtisadiyyata inyeksiyası, eyni zamanda "Holland sindromu"nun bəzi simptomlarını da özü ilə bərabər gətirmişdir. İqtisadi mənbələrdə "Holland xəstəliyi" kimi adlandırılan proses bir neçə əsas simptomun üzə çıxması şəklində təsvir edilir: ***(i)*** milli valyutanın real ifadədə (ölkələrarası inflyasiya fərqi nəzərə alınmaqla) möhkəmlənməsi, ***(ii)*** yüksək əmək haqları (və ya baha əmək resursları), ***(iii)*** qeyri-ticari sektorlara (həmçinin, xidmət sahələrinə) resurs axını və ***(iv)*** ticari sektorların geriləməsi və ya zəif artımı, qeyri-ticari sektorların (həmçinin, xidmət sahələrinin) yüksək sürətli artımı.

Manatın nominal ifadədə bahalaşmasına paralel olaraq, ölkədə müşahidə edilən inflyasiyanın əsas ticarət tərəfdaşı olan ölkələrdəkinə nəzərən daha yüksək olması real məzənnənin də, eyni qaydada, möhkəmlənməsinə səbəb olmuşdur. 2003-2014-cü illər ərzində qeyri-neft sektoru üzrə hesablanan real effektiv məzənnə (REM) indeksi 87%-ə yaxın

yüksəlmişdir ki, bu manatın (qeyri-neft sektoru üzrə ticarət tərəfdaşı olan ölkələrin çəkili orta məzənnəsinə nəzərən) real ifadədə bir o qədər bahalaşması mənasına gəlir. Sonuncu isə, öz növbəsində, qeyri-neft iqtisadiyyatının ticari sektorlarının (emal sənayesi, kənd təsərrüfatı, turizm xidmətləri və xarici ticarətdə alqı-satqı obyekti olan bəzi digər xidmətlər) rəqabət qabiliyyətinin zəifləməsi deməkdir.

"Holland xəstəliyi"nin iqtisadiyyatın rəqabət qabiliyyətinə təsir edən digər vacib simptomu əmək haqqlarının yüksəlməsidir. 2000-2014-cü illərdə orta aylıq əmək haqqının dinamikasının təhlili göstərir ki, MDB ölkələri arasında orta aylıq əmək haqqının ən yüksək olduğu, başqa ifadə ilə, əmək resurslarının ən baha olduğu ilk dörd ölkədən üçü təbii resurslarla, əsasən neft-qaz ehtiyatları ilə zəngin iqtisadiyyatlardır – Rusiya (1-ci yer), Qazaxıstan (2-ci yer) və Azərbaycan (4-cü yer). Azərbaycan bu baxımdan öz üçüncülük mövqeyini yalnız 2013-cü ildə Belarusa ötürmüşdür - həmin zamana qədərki son dörd ildə (2009-2012-ci illərdə) bu sıralamada üçüncü yerdə Azərbaycan qərarlaşmışdır.

Disserasiyanın **üçüncü fəsli** "Azərbaycanda fiskal dayanıqlılığın təmin edilməsinin əsas istiqamətləri" adlanır. Bu fəsildə müasir ekonometrik üsullardan istifadə edilməklə Azərbaycanda dövlət maliyyəsinin uzunmüddətli dayanıqlılığı qiymətləndirilmiş, dayanıqlılığın artırılması məqsədilə fiskal qaydaların tətbiqi imkanları araşdırılmış, həmçinin Azərbaycanda qeyri-neft sektoru üçün artımı maksimallaşdıran (optimal) vergi yükü hesablamaları aparılmış və vergi sisteminin təkmilləşdirilməsi istiqamətləri müəyyən olunmuşdur.

Müəyyən olunmuşdur ki, iqtisadi mənbələrdə fiskal dayanıqlılıq nəzəri cəhətdən, ən sadə formada uzunmüddətli dövrdə gözlənilən büdcə gəlirləri və büdcə xərclərinin bir-birinə bərabər *(uyğun)* olması şəklində izah edilir. Bu bərabərlik şərtinə əsasən, müəyyən dövr ərzində meydana çıxa biləcək büdcə kəsri, uzunmüddətli dövrdə büdcə profisiti ilə tarazlaşdırıldığı müddətcə dövlət büdcəsinin dayanıqlılığının təmin edildiyini söyləmək mümkündür.

Cari tədqiqatda fiskal dayanıqlılıq (və ya dayanıqlı fiskal siyasət) büdcə kəsrinin və məcmu dövlət borcunun ÜDM-ə nisbətinin məqbul səviyyədə stabil saxlanması (həmin səviyyəni keçməməsi) və bu şəraiti təmin etmək üçün əlavə vergi artımlarına gedilməməsi şəklində qəbul edilmiş, qiymətləndirmələrdə də məhz bu yanaşma əsas alınmışdır.

Fiskal dayanıqlılığın qiymətləndirilməsinə "mühasibat", "dövrlərarası büdcə məhdudiyyəti", "qəfil dayanma", "ehtimal modeli", "bəşəri inkişaf" kimi yanaşmalar mövcuddur ki, bunlardan ən geniş

yayılmış olanı dövrlərarası büdcə məhdudiyyəti yanaşmasıdır. Cari tədqiqatda Azərbaycan iqtisadiyyatı üçün qiymətləndirmələrdə məhz bu yanaşmadan istifadə edilmişdir. Dövrlərarası büdcə məhdudiyyəti yanaşması əsasında fiskal dayanıqlılığın qiymətləndirilməsində iki qrup ekonometrik alətlərdən istifadə edilir: stasionarlıq testləri və kointeqrasiya testləri.

Bu yanaşmaya əsasən büdcənin dayanıqlılığı aşağıdakı bərabərliyin köməyi ilə müəyyən olunur:

$\mathbf{R_t = \alpha + \beta G_t + \xi_t (1)}$

Burada,

*$R_t$ – büdcə gəlirləri, $G_t$ – büdcə xərcləri, $\xi_t$ – xəta göstəricisi, $\alpha$ və $\beta$ – hesablanan parametrlərdir.*

**(1)**bərabərliyinin dəyişənləri – $R_t$ və $G_t$ arasında kointeqrasiya əlaqələrinin olub-olmaması və β əmsalının aldığı qiymət büdcənin dayanıqlılığını müəyyən edən əsas şərtlərdir:

- $R_t$ və $G_t$ arasında kointeqrasiya əlaqəsi yoxdursa, fiskal dayanıqlılıq mövcud deyil;
- $R_t$ və $G_t$ arasında kointeqrasiya əlaqəsi varsa və $\beta = 1$ -dirsə, fiskal dayanıqlılıq mövcuddur;
- $R_t$ və $G_t$ arasında kointeqrasiya əlaqəsi varsa və $0 < \beta < 1$ –dirsə, fiskal dayanıqlılıq təmin edilməyə bilər *(zəifdir)*;
- $R_t$ və $G_t$ arasında kointeqrasiya əlaqəsi varsa və $\beta \leq 0$ –dırsa, büdcə xərcləri büdcə gəlirlərindən daha sürətli artım nümayiş etdirməkdədir və bu halda fiskal dayanıqlılıq mövcud deyil.

Bu tədqiqatda uyğun göstəricilər arasında kointeqrasiya əlaqələrinin mövcudluğu iqtisadi analizlərdə ən geniş tətbiq olunan iki addımlı Engle-Granger və Johansen testləri vasitəsilə yoxlanmışdır. Həm Engle-Granger testi üçün qalıqların, həm də fikal dayanıqlılığın qiymətləndirilməsi üçün vacib parametr hesab edilən β əmsalının əldə edilməsi məqsədilə **(1)** modelinin bazası əsasında aşağıdakı dörd model üzrə hesablamalar aparılmışdır:

***Model 1:*** $BGUDM_t = \alpha + \beta * BXUDM_t + \xi_t$
***Model 2:*** $BVGUDM_t = \alpha + \beta * BXUDM_t + \xi_t$
***Model 3:*** $BVGUDM_t = \alpha + \beta * BXUDM_2_t + \xi_t$
***Model 4:*** $NFGUDM_t = \alpha + \beta * NFXUDM_t + \xi_t$

Burada,

*$BGUDM_t$ – büdcə gəlirlərinin ÜDM-ə nisbəti,*

*$BXUDM_t$ – büdcə xərclərinin ÜDM-ə nisbəti,*

*$BVGUDM_t$ – büdcənin vergi gəlirlərinin ÜDM-ə nisbəti,*

*$BXUDM_2_t$ – büdcənin iqtisadiyyata xərclər bölməsi xaric, bütün digər xərclərinin ÜDM-ə nisbəti,*

*$NFGUDM_t$ – Neft Fondunun gəlirlərinin ÜDM-ə nisbəti,*

*$NFXUDM_t$ – Neft Fondunun xərclərinin ÜDM-ə nisbəti,*

*$\xi_t$ – modelin xəta göstəricisi,*

*$\alpha$ və $\beta$ – modelin hesablanan parametrlərdir.*

Dörd model üzrə qiymətləndirmələrin nəticələrindən müəyyən olunmuşdur ki, Azərbaycanda dövlət maliyyəsinin əsasını təşkil edən dövlət büdcəsinin və Neft Fondunun uzunmüddətli dövrdə fiskal dayanıqlılığı zəifdir, həmçinin hazırki şərtlərlə vergi daxilolmaları uzunmüddətli fiskal dayanıqlılığın qarantına çevrilə bilməz.Yəni, ölkədə dövlət maliyyəsinin uzunmüddətli dayanıqlılığını təmin etmək üçün, dövlət büdcəsi və Neft Fondunun gəlir və xərclərinin artım tempini uyğunlaşdırmaq, həmçinin vergiləri büdcənin əsas gəlir mənbəyinə çevirmək vacibdir. Bu məqsədlə qaydalara əsaslanan fiskal siyasət çərçivəsinin hazırlanması və həyata keçirilməsi orta və uzunmüddətli dövrdə əhəmiyyətli nəticələr verə bilər.

Dissertasiyanın üçüncü fəslinin sonuncu bölməsində Azərbaycan iqtisadiyyatında vergi yükü və onun dəyişmə meylləri dünya ölkələri ilə müqayisəli şəkildə araşdırılmış, müxtəlif inkişaf səviyyəsinə malik ölkələrdə vergi yükünün müxtəlifliyinin səbəbləri təhlil edilmiş, Azərbaycanda qeyri-neft iqtisadi artım tempi ilə vergi yükü arasında əlaqə kvadratik reqressiya modeli əsasında qiymətləndirilərək qeyri-neft iqtisadiyyatı üçün Armey əyrisi qurulmuş və optimal vergi yükü hesablanmışdır. Qiymətləndirilmiş optimal vergi yükü və vergi daxilolmalarının strukturu faktiki göstəricilərlə müqayisə edilərək fərqlərin səbəbləri təhlil edilmiş və ölkənin mövcud vergi sisteminin təkmilləşdirilməsi istiqamətində təkliflər verilmişdir.

Optimal və ya iqtisadi artımı maksimallaşdıran vergi yükü yanaşmasına görə, vergi yükünün (Ʈ) elə bir səviyyəsi mövcuddur ki, iqtisadi artım tempi (g) həmin səviyyəyə qədər yüksəlməkdə davam edir və Ʈ* nöqtəsində maksimum olur. Vergi yükü Ʈ* səviyyəsini keçdikdə isə iqtisadi artım tempi aşağı düşməyə başlayır.

İqtisadi mənbələrdə "dövlətin optimal ölçüsü" ilə iqtisadi artım tempi arasındakı əlaqə Armey əyrisi kimi tanınır. Aparılan tədqiqatın məqsəd və dərinliyindən asılı olaraq "dövlətin ölçüsü" qismində, əsasən büdcə xərclərinin, yaxud vergi daxilolmalarının ÜDM-ə nisbəti göstəricisindən istifadə edilir ki, əksər ölkələrdə büdcə gəlirlərinin əsasını məhz vergi

daxilolmaları təşkil etdir. Bu səbəbdən Armey əyrisi həm də vergi yükü ilə iqtisadi artım arasındakı əlaqəni izah edir.

Azərbaycan iqtisadiyyatı üçün artımı maksimallaşdıran vergi yükünün hesablanması məqsədilə kvadratik (və ya polinomial) reqressiya modeli əsasında qiymətləndirmədən istifadə edilmişdir. Modelin mahiyyəti sadədir – iqtisadi artım tempi birbaşa olaraq vergi yükündən və seçilmiş makroiqtisadi göstəricilərdən asılı funksiya şəklində ifadə olunmuşdur:

$$g_t = \alpha_0 + \alpha_1 T_t + \alpha_2 T_t^2 + \alpha_3 X_t + \xi_t \quad \textit{(1)}$$

*Burada,* $T_t$ *– vergi yükü,*

$\alpha_0, \alpha_1, \alpha_2, \alpha_3$ *– modelin qiymətləndirilən parametrləri,*

$X_t$ *– qeyri-neft iqtisadi artıma təsir edən makroiqtisadi göstəricilər*

$\xi_t$ *– modelin xəta göstəricisidir.*

Vergi daxilolmalarının strukturunu da – birbaşa və dolayı vergi daxilolmalarının nisbətini – nəzərə almaqla ***(1)*** bərabərliyi aşağıdakı iki formada qiymətləndirilmişdir:

$$g_t = a_0 + a_1 T_t + a_2 T_t^2 + a_3 Kg_t + a_4 fd + e_t \quad \textbf{(1.a)}$$

$$g_t = b_0 + b_1 T^b_t + b_2 T^{b\,2}_t + b_3 T^d_t + b_4 T^{d\,2}_t + b_5 Kg_t + b_6 fd + e_t \quad \textbf{(1.b)}$$

Burada,

$g_t$ *– qeyri-neft iqtisadiyyatının real artım tempi,*

$T_t$ *– vergi daxilolmalarının ÜDM-ə nisbəti,*

$T^b_t$ *– birbaşa vergilər üzrə daxilolmaların ÜDM-ə nisbəti,*

$T^d_t$ *– dolayı vergilər üzrə daxilolmaların ÜDM-ə nisbəti,*

$Kg_t$ *– qeyri-neft sektoruna kapital qoyuluşlarının artım tempi (kontrol dəyişəni)*

*a, b – modelin qiymətləndirilən parametrləri,*

*fd – fiktiv dəyişən (2005, 2009 və 2014-cü illərdə qeyri-neft iqtisadiyyatının artım tempindəki kəskin azalmanı ifadə edir),*

$e_t$ *– modelin qalıqları (hər model üzrə ayrılıqda).*

Azərbaycanın qeyri-neft iqtisadiyyatı üçün hesablama nəticələri göstərir ki, digər şərtlər dəyişməz qalacağı və böhran vəziyyəti müşahidə edilməyəcəyi halda, ÜDM-in 15.6%-inə bərabər vergi yükü iqtisadi artım tempini maksimallaşdıra bilər. Qeyd olunan şərtlər çərçivəsində qeyri-neft sektorunun maksimal illik artım tempi təqribən 12.1% təşkil edər ki, bu da hazırki səviyyədən xeyli yuxarıdır.

Hazırda (2014-cü ilin yekununa əsasən) Azərbaycan iqtisadiyyatında vergi yükü 14.2% təşkil edir ki, bu hesablanmış optimal səviyyədən 1.4 faiz bəndi aşağıdır. Yəni ölkədəki mövcud vergi yükü iqtisadiyyat üçün ən faydalı ola biləcəyi səviyyədən aşağıdır. Həmçinin hesablamalara görə vergi daxilolmalarının strukturunu təkmilləşdirməklə

iqtisadi artım tempini 12.8%-ə qədər yüksəltmək mümkündür (təbii ki, digər makromühit amillərinin dəyişməz qalması şərti burada da qüvvədədir).

**Cədvəl**

**Azərbaycanda qeyri-neft iqtisadi artım və vergi yükü: faktiki və optimal nöqtələrin müqayisəsi (2014-cü il)**

| | *Faktiki* | *Optimal* | *Fərq* |
|---|---|---|---|
| $g$ | 7.0 | 12.1 – 12.8 | (-5.1) - (-5.8) |
| $T$ | 14.2 | 15.6 | -1.4 |
| $T^b$ | 6.4 | 9.0 | -2.6 |
| $T^d$ | 7.8 | 6.6 | 1.2 |

Mənbə: Müəllif hesablamaları əsasında tərtib edilmişdir.

Hazırda birbaşa vergi gəlirləri məcmu vergi daxilolmalarının 45%-ni, dolayı vergilərdən daxilolmalar isə 55%-ni təşkil edir ki, bu vergi daxilolmalarının optimal strukturunun demək olar ki, əksinədir. Qiymətləndirmələrin nəticəsinə görə birbaşa vergilər üzrə daxilolmalar ümumi vergi daxilolmalarının 58%-ni, dolayı vergilər isə 42%-ni təşkil edəcəyi, başqa ifadə ilə yuxarıda qeyd etdiyimiz 15.6%-lik optimal vergi yükünün 9 faiz bəndi birbaşa, 6.6 faiz bəndi dolayı vergilərin payına düşəcəyi halda, vergi daxilolmalarının mövcud strukturu ilə əldə edilə biləcək maksimal artım tempini 0.7 faiz bəndi yüksəltmək mümkündür.

Müəyyən olunmuşdur ki, iqtisadiyyatın (qeyri-neft sektorunun) üzərindəki ümumi vergi yükü, o cümlədən birbaşa vergilər üzrə vergi yükü olmalı olduğundan aşağı (uyğun olaraq, 1.4 və 2.6 faiz bəndi), dolayı vergilər üzrə isə olmalı olduğundan yüksəkdir (1.2 faiz bəndi). Ancaq bunu vergi dərəcələrinin aşağı olması kimi izah etməyə tələsmək yanlış olardı.

Azərbaycanda orta ölçülü xəyali müəssisənin ödəməli olduğu vergilər Mərkəzi-Şərqi Avropa və MDB ölkələrinin çoxusundan yuxarıdır. Buna qarşılıq, faktiki vergi ödənişləri (ÜDM-də %) göstəricisi şəklində hesablandıqda, Azərbaycan, qeyd olunan regionda vergi yükünün ən aşağı olduğu ölkədir. Bu iki yolla hesablanan vergi yükü göstəricilərinin özlüyündə müəyyən çatışmazlıqları olsa da, mövcud mənzərə faktiki vergi ödənişləri əsasında hesablanan vergi yükünün olmalı olduğundan az olduğunu deməyə əsas verir. Yəni, yuxarıdakı hesablamalar əsasında əldə etdiyimiz nəticə - ölkədə vergi yükünün optimal səviyyədən nisbətən aşağı olması – vergi dərəcələrinin aşağı olması ilə bağlı deyil, daha çox vergi yığımları, vergi inzibatçılığı ilə bağlıdır.

Vergi daxilolmalarının strukturu ilə bağlı əldə etdiyimiz nəticələrin – birbaşa və dolayı vergilərin faktiki və optimal nisbətləri arasındakı fərqin – də eyni səbəbdən qaynaqlanması mümkündür. Belə olan halda birbaşa və dolayı vergilər üzrə daxilolmaların hazırki nisbətini (45% birbaşa, 55% dolayı vergilərdən daxilolmalar) qiymətləndirmələr nəticəsində əldə etdiyimiz nisbətə (58% birbaşa, 42% dolayı vergilərdən daxilolmalar) yaxınlaşdırmaq üçün gərəkli olan, birbaşa vergilər üzrə daxilolmaların artırılmasına (vergidən yayınmaların azaldılmasına) çalışmaqdır.

**Ümumilikdə tədqiqat işindən aşağıdakı başlıca nəticələr əldə edilmiş və təkliflər irəli sürülmüşdür:**

**1.** Azərbaycanın dövlət büdcəsinin formalaşmasının təhlilləri göstərir ki, hazırda büdcənin əsas gəlir mənbəyi Neft Fondundan köçürmələrdir – daxilolmaların bu növü məcmu büdcə gəlirlərinin 60%-ə yaxınını təşkil edir. Büdcə daxilolmalarının 35%-ni təşkil edən vergilər ikinci əsas gəlir mənbəyidir ki, onun da əhəmiyyətli bir hissəsi - təqribən 40%-i neft sektorundan daxilolmaların payına düşür. Bu isə büdcə gəlirlərinin bütövlükdə 70%-dən çoxunun neft sektoru hesabına formalaşması mənasına gəlir. Büdcənin neft amilinə (neft hasilatının həcmi və neft qiymətindəki dəyişmələrə) sıx bağlılığının göstəricisi olan bu rəqəm, onun orta və uzunmüddətli gələcəkdə neft amilindəki variasiyalara qarşı həssaslığını ifadə edir.

**2.** Həmçinin, ortamüddətli zaman kəsiyində büdcə gəlirlərinin neft amili ilə bağlı stress hallarına (neft hasilatı və neft qiymətindəki kəskin enmələrə) qarşı dayanıqlılığının ssenari analizinin nəticələrinə görə, qeyri-neft sektorunun davamlı və yüksək (illik 7-9% real artım tempi) artım tempinin təmin olunması şəraitində dövlət büdcəsi kəskin neft şoklarına qarşı dayanıqlılığını qorumaq iqtidarındadır. Üstəlik Azərbaycan, həm ortamüddətli dövrdə büdcənin dayanıqlılığını təmin etmək, həm də qeyri-neft sektorunun yüksək artım tempini qorumaq üçün yetərli maliyyə resurslarına sahibdir.

**3.** Son illərdə vergi sisteminin təkmilləşdirilməsi – vergi dərəcələrinin azaldılması və vergi inzibatçılığının təkmilləşdirilməsi yönündə əhəmiyyətli irəliləyişlərə nail olunmuşdur. Bütün bu işlərlə yanaşı, verginin stimullaşdırıcı xüsusiyyətlərindən istifadənin genişləndirilməsi də diqqətdə saxlanılmalı olan vacib məqamdır.

**4.**Ölkədə mülkiyyət hüquqlarının qorunması və hüquq-məhkəmə sisteminin inkişafı sahəsində islahatların davam etdirilməsi, rəqabət mühitinin təkmilləşdirilməsi, xarici ticarət, ilk növbətə ixrac şərtlərinin yumşaldılması, həm istehsal (elektrik təchizatı və s.), həm də nəqliyyat

infrastrukturunun təkmilləşdirilməsi sahəsində işlərin davam etdirilməsi qeyri-neft sektorunun davamlı və yüksək templi artımını təmin edəcək vacib biznes mühiti şərtləridir. Qeyri-neft sektorunun ortamüddətli dövrdə yüksək artım tempini qoruması isə, Neft Fondu vəsaitləri ilə birgə, büdcə dayanıqlılığının başlıca iqtisadi qarantıdır.

**5.** Azərbaycan iqtisadiyyatında büdcə xərcləri ölkənin iqtisadi və sosial infrastrukturunun modernləşdirilməsi, əhalinin məşğulluğunun təmin edilməsi, yoxsulluğun azaldılması və regionların inkişafı sahəsində genişmiqyaslı inkişaf proqramlarının həyata keçirilməsində müstəsna rol oynayır. Həmçinin, büdcə xərcləri qeyri-neft məcmu tələbinin həcmcə ən böyük elementidir və bu səbəbdən onun ölkədəki makroiqtisadi proseslərə təsir gücü kifayət qədər yüksəkdir.

**6.** Azərbaycan iqtisadiyyatında büdcə kəsri kiçik rəqəmlərlə ifadə olunur. Ancaq dövlət büdcəsini icmal büdcədən kənarda, ayrılıqda təhlil etdikdə və dövlət büdcəsinin, əsasən Dövlət Neft Fondu vəsaitləri, çox az bir hissəsinin isə dövlət istiqrazları ilə örtülən kəsir ölçüsünə diqqət yetirdikdə, bu göstəricinin iqtisadiyyatın miqyasına nəzərən kifayət qədər böyük – qeyri-neft iqtisadiyyatının təqribən 30%-i qədər – olduğu aydın olur.

